# İslam Əməkdaşlıq Təşkilatı Ermənistanın təcavüzkar siyasətini davam etdirməsindən narahatdır

"Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərini dərhal və qeyd-şərtsiz tərk etməlidir". Bu fikir İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş son hadisələrlə bağlı bəyanatında yer alıb.

Bəyanatda Ermənistanın təcavüzkar siyasətini davam etdirməsi ilə bağlı təşkilatın narahatlığı ifadə olunur. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionundan və digər ərazilərindən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasına dair İƏT-in mövqeyi bir daha diqqətə çatdırılır, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsinin vacibliyi vurğulanır.

Bəyanatda beynəlxalq ictimaiyyətin, xüsusilə ATƏT-in Minsk qrupunun Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində həllinə nail olmaq üçün səylərini daha artırmasının zəruriliyi diqqətə çatdırılır.

***AZƏRTAC***